## Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən 2022-ci ildə görülmüş işlərlə bağlı hesabat

Əvvəlki illərdə olduğu kimi, 2022-ci ildə də Dövlət Statistika Komitəsi rəsmi statistika məlumatlarının müasir tələblərə uyğun hazırlanmasını, milli statistika sisteminin inkişafı məsələlərini diqqət mərkəzində saxlamış və öz fəaliyyətini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılaraq təsdiq edilmiş 2022-ci il üçün statistik işlər proqramı, metodoloji və məlumat istifadəçiləri ilə, iqtisadi təhlil üzrə iş planları əsasında qurmuş, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamından, Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planından, Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planından, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasından, 2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramından, Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramından, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 16 dekabr tarixli, 517 nömrəli Qərarı ilə təsdiq edilmiş “2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı”ndan, digər normativ hüquqi aktlardan, BMT Baş Assambleyasının qətnaməsi ilə qəbul edilmiş “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn vəzifələrin yerinə yetirilməsinə yönəltmişdir.

“2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı” üzrə 2022-ci ildə 8 tədbirin icrası tam başa çatdırılaraq ümumilikdə 25 iş yerinə yetirilmiş, Komitənin digər dövlət proqramları üzrə icraçı kimi çıxış etdiyi tədbirlərin icrası təmin edilmişdir.

“2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının hazırlanıb keçirilməsi üzrə təqvim planı”na əsasən Dövlət Statistika Komitəsinin elektron məlumat sisteminə daxil edilmiş siyahıyaalma məlumatları əsasında 30 cilddən ibarət məcmuə nəşr etdirilmiş və istifadəçilərə çatdırılmışdır.

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın 2022-ci il üçün nəzərdə tutulmuş fəaliyyət planlarında Dövlət Statistika Komitəsinin icraçısı olduğu tədbirlərin icrası təmin edilmiş, bununla bağlı müvafiq məlumatlar əlaqələndirici qurumlara təqdim olunmuşdur.

2022-ci ildə Dövlət Statistika Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri metodoloji bazanın möhkəmləndirilməsi olmuş, BMT, Avrostat, BVF, İƏİT, BƏT və digər beynəlxalq təşkilatların metodologiyalarına uyğunlaşdırılmaqla 85 metodoloji material hazırlanmışdır. Statistika məlumatlarının keyfiyyətinin beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə statistik hesabat formalarının təkmilləşdirilməsi işi davam etdirilmişdir. Dövlət Statistika Komitəsinin elmi-metodoloji şurasının 2022-ci ildə keçirilmiş 11 iclasında 45 məsələ müzakirə olunmuşdur. Dövlət Statistika Komitəsinin təşəbbüsü və aidiyyəti dövlət qurumları ilə razılaşdırılmaqla il ərzində 1 yeni hesabat forması təsdiq edilmiş, 69 formaya isə aktuallığını itirmiş göstəricilərin çıxarılması, tələbata uyğun yenilərinin əlavə edilməsi ilə yenidən baxılmışdır.

Milli statistik təsnifatlar sisteminin inkişafı sahəsində işlər davam etdirilmiş, “Tullantıların statistik təsnifatı”nın yeni versiyası hazırlanmış və ona dair metaməlumatlar aktuallaşdırılmış, “Vaxtdan istifadə statistikası üçün fəaliyyətlərin təsnifatı”na dair metaməlumat hazırlanmışdır.

Dövlət qurumlarının məlumat bazalarının Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına "Elektron hökumət" şlüzü vasitəsilə inteqrasiyasına dair Əmək və Əhalinin Sosial Müdafiəsi, Ədliyyə, Elm və Təhsil nazirlikləri və Dövlət Miqrasiya Xidməti ilə imzalanmış Razılaşmalar əsasında aidiyyəti məlumatların Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına ötürülməsi prosesi çərçivəsində zəruri tədbirlər həyata keçirilmiş, Elm və Təhsil Nazirliyi və Dövlət Miqrasiya Xidməti ilə Dövlət Statistika Komitəsi arasında inzibati məlumatların inteqrasiyası təmin edilmişdir. Digər qurumlarla bu sahədə işlər davam etdirilməkdədir.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 11 fevral tarixli 930 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" əsasında Koreya Statistika Komitəsi ilə birgə həyata keçirilən "İnteqrasiya olunmuş inzibati məlumat bazalarının idarə olunması sisteminin yaradılması" layihəsi çərçivəsində Dövlət Statistika Komitəsində "İnzibati məlumatların idarə olunması sistemi - ADİS" yaradılmışdır. 2022-ci il 16 noyabr tarixində Dövlət Statistika Komitəsində aidiyyəti dövlət qurumlarının əməkdaşlarının iştirakı ilə adı çəkilən informasiya sisteminin təqdimat mərasimi keçirilmişdir.

Statistika məlumatlarının toplanmasında, emalında və yayımlanmasında istifadə olunan informasiya texnologiyalarının tətbiqi imkanlarının genişləndirilməsi, statistik informasiya sisteminin inkişaf etdirilməsi üçün son illər Dövlət Statistika Komitəsində bir sıra işlər görülmüş, respondentlərin yerli statistika orqanlarına gəlmədən hesabat məlumatlarını elektron formada təqdim etmələri üçün zəruri tədbirlər həyata keçirilmiş və nəticədə rəsmi statistika hesabatlarının onlayn rejimdə elektron formada qəbulu 95,0 faizi ötmüş, statistik hesabatları elektron formada internet vasitəsilə təqdim etmək üçün 2022-ci il ərzində 5,1 milyon müraciət daxil olmuş, bununla da vətəndaş-məmur təmaslarının səviyyəsi minimuma endirilmiş, eyni zamanda statistik məlumatların işlənməsi və təhlili imkanları yüksəlmişdir.

2022-ci ildə Dövlət Statistika Komitəsi tərəfindən sahibkarlıq subyektlərinin aid olduqları kateqoriyanın müəyyənləşdirilməsi ilə bağlı sahibkarların 4593 sorğusuna aidiyyəti üzrə baxılmış və vaxtında cavablandırılmışdır. Dövlət Statistika Komitəsi tərəfindən göstərilən digər elektron xidmətlərlə yanaşı, sahibkarlıq subyektinə ölçüsünə görə aid olduğu kateqoriyaya dair arayışın təqdim edilməsi prosesinin də avtomatlaşdırılması məqsədilə 2022-ci ildə yeni "Sahibkarlıq subyektinə ölçüsünə görə aid olduğu kateqoriyaya dair elektron arayışın verilməsi" elektron xidmət yaradılaraq "Dövlət Xidmətlərinin Elektron Reyestri"nə daxil edilmiş və Komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Komitənin veb-səhifəsi (www.stat.gov.az) istifadəçilərin maraqlarının təmin edilməsi baxımından müntəzəm olaraq təkmilləşdirilmiş və yenilənmiş, məlumat bazaları əsas sosial-iqtisadi göstəricilər üzrə çoxsaylı cədvəlləri, təhlil və metodoloji materialları əhatə etmişdir. 2022-ci ildə internet səhifəsinə 82,0 faizi ölkə ərazisindən, 18,0 faizi isə xarici ölkələrdən olmaqla hər gün orta hesabla 11612 və ya 2021-ci illə müqayisədə 15,6 faiz çox istifadəçi daxil olmuşdur.

Mütəmadi olaraq veb-səhifənin monitorinqi aparılmış və aşkar olunan çatışmazlıqların aradan qaldırılması təmin edilmişdir. Veb-səhifədə yerləşdirilmiş məlumat bazaları, sahələr üzrə dinamika sıraları, metodoloji sənədlər, keyfiyyət məruzələri, hesabat formalarına və göstəricilərinə dair metaməlumatlar aktuallaşdırılmışdır. Veb-səhifədən istifadə olunması ilə bağlı vəziyyətin, məlumat istifadəçilərinə göstərilən xidmətlərin keyfiyyətinin, yayımlanan

məlumatların dolğunluğunun və s. qiymətləndirilməsi məqsədilə 2022-ci il ərzində Dövlət Statistika Komitəsinin internet səhifəsində onlayn rejimdə istifadəçilərlə sorğu keçirilmişdir. Kütləvi informasiya vasitələrinin və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin də iştirak etdiyi bu sorğunun nəticələri Dövlət Statistika Komitəsinin internet səhifəsində yerləşdirilmişdir.

Dövlət Statistika Komitəsi tərəfindən göstərilən elektron xidmətlərin "Elektron hökumət" portalı vasitəsilə təqdimatına dair vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin həyata keçirilməsi məqsədilə Komitənin internet səhifəsinin "E-xidmətlər" bölməsində bu xidmətlər haqqında ətraflı məlumatlar yerləşdirilmiş, "Facebook", "Youtube", "Tvitter" və "İnstagram" sosial şəbəkələrində Dövlət Statistika Komitəsinin səhifəsinin aktiv fəaliyyəti təmin edilmişdir. Həmçinin Komitənin internet səhifəsinin mobil versiyasının mütəmadi olaraq təkmilləşdirilməsi və statistik məlumatların vaxtlı-vaxtında yenilənməsi davam etdirilmişdir.

Sahibkarların statistika orqanları ilə münasibətlərində qarşılaşdıqları problemlərin öyrənilməsi və həlli məqsədilə Komitənin veb-səhifəsində mütəmadi olaraq "Sahibkarlar üçün 7 sual" rəy sorğusu keçirilmiş, rəy və təkliflərin gələcəkdə nəzərə alınması üçün cavablar ümumiləşdirilərək təhlil edilmişdir.

Komitə tərəfindən göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmiş, o cümlədən elektron xidmətlərin təhlükəsizliyini və dayanıqlığını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin yeni "Hosting V2" infrastrukturunun tələblərinə uyğun olaraq server və proqram təminatı yenilənmiş, nizamlama işləri görülmüş, uyğunsuzluqlar aradan qaldırılmış, elektron xidmətlərin monitorinqi aparılaraq yeni infrastrukturun tələblərinə uyğun istismarı təmin edilmişdir.

Dövlət Statistika Komitəsi tərəfindən göstərilən xidmətlər "Dövlət qurumlarında elektron xidmətlərin, informasiya ehtiyatlarının və sistemlərinin qiymətləndirilməsi" qaydalarına uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin apardığı qiymətləndirmənin nəticələrinə əsasən 273 adda xidmət göstərən 28 dövlət qurumu arasında 3-cü yerdə olmuş, qurumların elektronlaşma dərəcəsinin reytinq matrisində isə 100% nəticə ilə üst sıralarda yerləşmişdir.

Elektron xidmətlərdən istifadə qaydaları barədə inzibati reqlamentlərə yenidən baxılmış, xidmətlər üzrə yeni bildiriş formaları hazırlanaraq onların avtomatik rejimdə sorğu edən şəxslərə göndərilməsi tam təmin edilmişdir. "Rəsmi statistik hesabatların təqdim edilməsi" elektron xidmətində rəsmi statistika hesabatı formaları və statistik işlərlə bağlı 17 iş üzrə yeni proqram təminatı hazırlanmış, mövcud informasiya sistemləri əsasında yeni icmal məlumatlarının (cədvəllərin) alınması və s. bu kimi işlər üzrə 24 proqram təminatında müvafiq dəyişikliklər edilmişdir. "Statistik nəşrlərin (kitabların) onlayn satışı" elektron xidmətində müraciətlərin vəziyyətini izləmək, eləcə də sifarişlərin vaxtında yerinə yetirilməsini təmin etmək məqsədilə "Sifarişlər cədvəlinə baxış https://www.azstat.org/xidmetler/neshrler_v3.0/baxish.php" veb-səhifəsi hazırlanmışdır. Sözügedən elektron xidmətin Komitənin mövcud sənəd dövriyyəsi sisteminə inteqrasiyası həyata keçirilmiş, müraciətlərin avtomatik qeydə alınması və icra vəziyyətinin izlənməsi imkanı yaradılmışdır.

Bundan əlavə, Dövlət Statistika Komitəsinin internet səhifəsində onlayn əlaqə vasitəsi (çat) yaradılmışdır ki, istifadəçilər bu xidmətdən istifadə edərək sorğuları iş günləri saat 09:00-dan 18:00-dək (nahar fasiləsi istisna olmaqla) real vaxt rejimində göndərə və cavab ala bilərlər.

Dövlət Statistika Komitəsi seçmə statistik müayinələr vasitəsilə ev təsərrüfatları arasında sorğu yolu ilə əldə edilən məlumatların istehsalını davam etdirmiş, 2022-ci il ərzində müxtəlif mövzular üzrə 23 statistik müayinə keçirilmiş, yerli statistika orqanları seçməyə düşmüş respondentlərin siyahısı, müayinə formaları, təlimat və göstərişlərlə təmin edilərək onların keçirilməsini təşkil etmiş, müayinələr nəticəsində əldə edilmiş məlumatlar icmallaşdırılaraq nəşr edilmiş, istifadəçilərə çatdırılmış və Komitənin internet səhifəsində yerləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" 2020-ci il 28 iyul tarixli 1114 nömrəli Fərmanının icrası ilə əlaqədar aidiyyəti dövlət qurumlarından, hasilat sənayesində fəaliyyət göstərən müəssisələrdən məlumatlar toplanılmış, yoxlanılmış və həmin məlumatlar əsasında "Hasilat sənayesində şəffaflıq üzrə məcmu hesabat" adlı toplu hazırlanaraq "Hasilat Sənayesində Şəffaflıq" portalında yerləşdirilmişdir.

Hakimiyyət orqanlarının və digər statistik məlumat istifadəçilərinin cari tələbatlarının ödənilməsi məqsədilə 2022-ci ildə müxtəlif mövzular üzrə 33 adda illik statistik məcmuə və digər nəşrlər çap etdirilmiş, 49 (onlardan 12-si kompleks) təhlili məruzə və 125 mətbu-məlumat hazırlanmışdır. Yerli statistika orqanları tərəfindən də rayon və şəhərlər üzrə illik statistik məcmuələr nəşr edilmiş, 264 kompleks təhlili məruzə hazırlanmışdır. Məcmuə və bülletenlərin elektron versiyaları Komitənin internet səhifəsində yerləşdirilmişdir.

"2022-ci il üçün metodoloji və məlumat istifadəçiləri ilə iş planı"na uyğun olaraq, metodoloji, təhlil və digər məsələlərlə bağlı statistik məlumat istifadəçilərinin (müxtəlif nazirlik, komitə, digər təşkilat, informasiya agentlikləri və KİV nümayəndələrinin) iştirakı ilə Komitədə əhali, əmək, energetika və ətraf mühit, əhalinin həyat səviyyəsi, milli hesablar, sənaye və tikinti, kənd təsərrüfatı, ticarət, nəqliyyat, informasiya və rabitə, təhsil, dayanıqlı inkişaf, qiymət statistikası, Komitənin internet səhifəsində yaradılan "Mənim ASİS-im" bölməsindən istifadə məsələləri və s. mövzulara həsr olunmuş seminar-görüşlər keçirilmişdir. Ümumilikdə, il ərzində Komitədə 187 istifadəçinin iştirakı ilə 13 görüş keçirilmişdir.

İl ərzində istifadəçilərdən Komitəyə daxil olan sorğular mütəmadi olaraq təhlil edilmiş, onların daha çox müraciət etdikləri statistika sahələrinin göstəriciləri müəyyənləşdirilmiş və hazırlanmış mətbu-məlumatların istifadəçilərin sorğularına uyğunluğu təmin edilmişdir.

2022-ci ildə Dövlət Statistika Komitəsinin fəaliyyətinin əsas istiqamətlərindən birini də beynəlxalq təşkilatlarla əməkdaşlıq təşkil etmişdir. BMT və onun regional təşkilatları, Avropa İttifaqı, BVF, BƏT, UNICEF, UNESCO, Dünya Bankı, Asiya İnkişaf Bankı, İƏİT, İƏT, Avrostat, MDB Dövlətlərarası Statistika Komitəsi və bir sıra digər beynəlxalq təşkilatlarla, həmçinin dünya ölkələrinin milli statistika xidmətləri ilə qarşılıqlı məlumat mübadiləsi davam etdirilmişdir. Milli metodologiyaların beynəlxalq standartlara uyğunlaşdırılması, təcrübə mübadiləsinin aparılması, inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsinin öyrənilməsi və tətbiqi, beynəlxalq məlumat portallarında Azərbaycan Respublikasına aid statistik məlumatların yoxlanılması, aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması istiqamətində beynəlxalq təşkilatlarla və onların Azərbaycandakı nümayəndəlikləri ilə işlər davam etdirilmişdir.

2022-ci ildə "Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək" Tvinninq layihəsi çərçivəsində 3 ekspert missiyası baş tutmuş, Dövlət Statistika Komitəsi nümayəndə heyətlərinin Litva Statistika Departamentinə və Finlandiya Statistika İdarəsinə təlim səfərləri təşkil olunmuşdur. Aprel

ayında Bakı şəhərində Tvinninq layihəsinin bağlanış mərasiminə həsr olunan konfrans keçirilmişdir.

Dövlət Statistika Komitəsi ilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) Azərbaycan Respublikasındakı Nümayəndəliyi arasında "2022-ci ildə Azərbaycan Respublikasında Çoxgöstəricili Klaster Sorğusunun (MICS) keçirilməsinə dair Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Finlandiya Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının "Dayanıqlı İnkişaf Məqsədlərinin göstəriciləri və kənd təsərrüfatının siyahıyaalınmasının rəqəmsallaşdırılması üzrə Dövlət Statistika Komitəsinin potensialının gücləndirilməsi" layihəsinə başlanılmış, niyyət məktubu imzalanmış və Nazirlər Kabinetinin 2022-ci il 3 noyabr tarixli, 660s nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu çərçivəsində işlər davam etdirilmiş, koreyalı mütəxəssislərin Dövlət Statistika Komitəsinə səfərləri təşkil edilmiş, sentyabr ayında isə Dövlət Statistika Komitəsinin nümayəndə heyəti "İnteqrasiya olunmuş inzibati məlumat bazalarının idarə olunması sisteminin yaradılması" layihəsi çərçivəsində Koreyaya səfər etmişdir.

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Azərbaycanda səfərdə olan Koreya Statistika Komitəsinin (KOSTAT) nümayəndələri ilə görüşmüşdür. Görüşdə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"ndan irəli gələn məsələlər, o cümlədən Koreya Statistika Komitəsi ilə birgə həyata keçirilən növbəti "İnteqrasiya olunmuş inzibati məlumat bazalarının idarə olunması sisteminin yaradılması" layihəsi çərçivəsində 2022-ci ildə görülən işlər haqqında danışılmış, "ADİS" informasiya sisteminin və bu məqsədlə Dövlət Statistika Komitəsində quraşdırılmış serverlərin istifadəyə verilməsinin mühüm əhəmiyyəti vurğulanmış, gələcəkdə iki tərəf arasında əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur.

Çoxgöstəricili Klaster Sorğusu (MICS) ilə bağlı işlər cari ildə davam etdirilmişdir. Aidiyyəti dövlət orqanlarının, UNICEF-in ekspertlərinin, regional və mərkəzi ofisinin rəy və təklifləri nəzərə alınmaqla MICS-in sorğu anketlərinin layihələri yenilənmiş, UNICEF-in ekspertlərinin iştirakı ilə 4 təlim seminarı keçirilmiş, MICS-lə bağlı seçmə planı hazırlanmış, seçməyə düşmüş klasterlər üzrə xəritələr yenilənmiş, ev təsərrüfatları üzvlərinin siyahıları tərtib edilmiş, seçilmiş ərazilərdə uşaqların və yaşı 49-dan yuxarı olmayan anaların iştirakı ilə sorğu anketləri sınaqdan keçirilmiş, sorğu məlumatlarının elektron informasiya sisteminə daxiletmə proqramının (Kompüter Dəstəkli Fərdi Sorğu - CAPI) sorğu anketlərinə uyğunlaşdırılması istiqamətində işlər aparılmışdır. "Çoxgöstəricili Klaster Sorğusunun (MICS) keçirilməsi ilə əlaqədar İstiqamətləndirici Komitənin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli, 526s nömrəli Sərəncamına əsasən MICS-lə əlaqədar İstiqamətləndirici Komitə və Texniki Komitə yaradılmış və hər iki Komitənin cari ildə 2 iclası keçirilmişdir. İstiqamətləndirici Komitənin 2022-ci il 1 noyabr tarixli iclasının qərarı ilə MICS-in Tədbirlər Planı, sorğu anketləri və büdcəsi təsdiq olunmuşdur. MICS çərçivəsində işlər 2023-cü ildə davam etdiriləcəkdir.

2022-ci ildə Dayanıqlı İnkişaf Məqsədləri (DİM) göstəriciləri üzrə statistik məlumat bazasının genişləndirilməsi istiqamətində zəruri addımlar atılmış, müvafiq dövlət orqanları ilə birgə əlavə olaraq 5 yeni göstərici üzrə məlumatların hazırlanmasına nail olunmuş və bununla da məlumat istehsalı təmin olunan DİM göstəricilərinin sayı 112-yə çatdırılmışdır ki, onlardan da 86-sı milli prioritet kimi müəyyən edilmiş göstəricilərdir.

Yekun olaraq qeyd edilməlidir ki, Dövlət Statistika Komitəsi ölkə rəhbərliyi tərəfindən statistika orqanları qarşısında qoyulmuş vəzifələrin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə əsasən nail olmuş və 2023-cü ildə də bu istiqamətdə öz səylərini əsirgəməyəcəkdir.